# Təzə bina

## 1.

Lampalar asılıb, rənglənib tavan,
Pəncərə işıqlı, şüşələr təmiz,
Qapılar ikiqat, divarlar əlvan,
Hələ döşəməyə düşməyib bir iz.

Vəzifə stolu... bu da stullar,
Adi düzülüşdə səliqə-sahman.
Miz üstə nə kağız, nə də dərkənar,
Nə iclas qərarı, nə cədvəl, filang

Kənar parketlərə bir az rəng dəyib,
Xırdaca eyiblər tapılar hələ.
Qəbul saatları göstərilməyib,
Arxayın açılır qapılar hələ.

Nə icazə alan, nə izin verən,
Girir işıqçəkən, baxır ustalar,
Bu otağın nəyi çatışmır görən?
Vəzifə stolug Bu da stullar.

Hələ rəng iyinə bürünüb otaq,
Rəngsaz bu rənglərə baxıb dincəlir.
İndi yoldan ötən dəcəl bir uşaq,
Gəlib bu stulda otura bilər.

Hələlik divarlar bənna həvəsli,
Qapı-pəncərələr fəhlə nəfəsli.
Bir barmaq görməyib zəng düymələri,
Telefon dəstəyi həsrətdir ələ.
Bayırın havası dolub içəri,
Zamanın havası görünmür hələ.

## 2.

Bir barmaq uzandı zəng düyməsinə,
Telefon dəstəyi qopdu yerindən.
Tellər qulaq asdı insan səsinə,
Otağın havası dəyişdi birdən.
Dəyişdi... Dəyişdi...
Stol arxasında ürək döyündü.
Stullar böyüdü, stol böyüdü...
Böyüdü bir insan ixtiyarıyla,
Böyüdü bir seyfin açarlarıyla,
Böyüdü möhürlə, böyüdü sözlə,
Böyüdü...
Stol arxasında ürək döyündü,
Bir səs əks olundu rəngli tavanda,
Hər şey adilikdən çıxdı bir anda.

Bu halal, doğru qələmlə yerin cənnətlikdir, Musa Yaqub.